# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ

i m t a h a n   i ş t i r a k ç ı s ı n ı n

# YADDAŞ KİTABÇASI

(Xarici dildə işgüzar və akademik kommunikasiya bacarıqlarının yoxlanılması imtahanına dair)

Aşağıdakıları imtahana gətirmək qəti qadağandır:



**2026**

## İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:

1. İmtahan günü buraxılış vərəqənizdə göstərilən vaxtda imtahan verəcəyiniz binanın qarşısına gəlin (bina haqqında məlumat imtahana buraxılış vərəqənizdə göstərilmişdir).
2. İmtahana aşağıdakı sənədləri gətirin:
   - **Şəxsiyyəti təsdiq edən sənədin əsli:**
     - Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqəsini (və ya milli pasport);
     - əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərfindən verilmiş daimi yaşayış üçün icazə vəsiqələri;
     - qaçqın statusu almış şəxslər və onların ailə üzvləri qaçqın vəsiqələri, onlara verilmiş yol sənədi;
     - beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini;
   - **İmtahana buraxılış vərəqəsi.**
3. Özünüzlə mütləq qara və ya tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələm gətirməyi unutmayın.
4. Vaxt bölgüsünü düzgün idarə etmək üçün mexaniki qol saatı gətirməyiniz tövsiyə olunur.
5. **İştirakçı aşağıdakı hallarda imtahana buraxılmır:**
   - tələb olunan sənədlərdən hər hansı biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
   - saxta sənəd təqdim etdikdə;
   - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqə qalmışdan sonra gəldikdə;
   - imtahana sərxoş vəziyyətdə gəldikdə;
   - imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.
6. Göstərilən sənədləri imtahan binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra imtahana buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.

## İŞTİRAKÇININ İMTAHAN ZALINDA GÖRƏCƏYİ İŞLƏR:

1. İmtahan zalında imtahana buraxılış vərəqənizdə göstərilən yerdə oturduqdan sonra nəzarətçinin izahatını diqqətlə dinləyin. Aydın olmadıqda əlinizi qaldırıb nəzarətçiyə müraciət edin.
2. Nəzarətçinin imtahanda davranış qaydaları və texnoloji tələblərlə bağlı izahat işi qurtardıqdan sonra sizə cavab vərəqləri paylanır. Cavab vərəqini qara və ya tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələmlə doldurun. Kodlaşdırılması tələb olunan cavabları qeyd edərkən dairələri tam qaralayın (nümunə: ● ), yazılı şəkildə cavablandırılması tələb olunan cavablarınızı qeyd edərkən qeydlərinizi verilmiş çərçivə daxilində aparın. Orada lazımsız qeydlər aparmayın. Vərəqin əks üzünün qabarmaması üçün qələmi bərk basmayın. Cavab vərəqindəki məlumatlar optik qurğu vasitəsilə oxunur. Ona görə də cavab vərəqi ilə işləyərkən ehtiyatlı olun. Cavab vərəqini əzmək, ləkələmək, zədələmək və cırmaq olmaz.

**DİQQƏT!** *Korlanmış cavab vərəqi və ya sual kitabçası dəyişdirilmir.*

3. Sizə məxsus **cavab vərəqinin ön üzündə** iş nömrəniz, soyadınız, adınız, atanızın adı, sıra və yeriniz çap edilmişdir. Özünüz haqqında çap edilmiş həmin məlumatları yoxlayın. Uyğunsuzluq aşkar etdikdə mütləq nəzarətçiyə müraciət edin. **Bəyannamə bölməsində** imzanızı atın. Bununla siz cavab vərəqinin ön üzündə soyadı, adı və ata adı göstərilən şəxs olduğunuzu təsdiq edir, imtahan zamanı cavabları köçürməyəcəyinizə, başqalarının sizdən köçürməsinə şərait yaratmayacağınıza və digər qaydalara zidd hərəkətlərə yol verməyəcəyinizə dair üzərinizə öhdəlik götürür, əks təqdirdə qanunla müəyyən edilmiş məsuliyyət daşıyacağınız haqqında məlumatlandırılmış olursunuz.
   Bundan sonra sizə sual kitabçası təqdim olunur. Sual kitabçasının ön üzündə də iş nömrəniz, soyadınız, adınız, atanızın adı və variantınız çap edilmişdir. Sual kitabçasının ön üzündəki **bəyannaməni də soyadınızı, adınızı və atanızın adını yazdıqdan sonra imzalayın.**

**DİQQƏT!** *Təqdim olunan sual kitabçası sizə məxsus deyilsə və ya cavab vərəqənizdə göstərilmiş varianta uyğun olmazsa, dərhal nəzarətçiyə müraciət edin. Çünki imtahan nəticələriniz qiymətləndirilərkən cavablarınız cavab vərəqənizdə göstərilmiş varianta uyğun və üzərində sizin soyadınız, adınız və ata adınız çap edilmiş sual kitabçasının doğru cavabları ilə müqayisə ediləcəkdir. Odur ki, sual kitabçasının sizə məxsus olduğundan əmin olun.*

4. Nəzarətçi sual kitabçasını açmağa icazə verdikdən sonra onu vərəqləyərək çap qüsurlarının olub-olmadığını yoxlayın. Bu cür qüsurlar olarsa, onların aradan qaldırılması üçün nəzarətçiyə müraciət edin. Çap qüsurları yoxdursa kitabçanı örtün və nəzarətçinin növbəti tapşırığını gözləyin.

5. **İmtahan iki hissədən ibarətdir:** test tapşırıqlarının cavablandırılması və yazı işinin yerinə yetirilməsi; danışıq bloku.
6. **<u>Birinci hissə</u> – test tapşırıqlarının cavablandırılması və yazı işinin yerinə yetirilməsi.** Bu hissə üçün **2 saat** vaxt ayrılır.
7. Sizə 30 qapalı tipli test tapşırığı təqdim olunur. Test tapşırıqları sual kitabçasında aşağıdakı ardıcıllıqla yerləşdirilmişdir:
   - audioqurğu vasitəsilə təqdim olunan birinci dinləmə mətni (monoloq) üzrə 1–5-ci tapşırıqlar;
   - audioqurğu vasitəsilə təqdim olunan ikinci dinləmə mətni (monoloq) üzrə 6–10-cu tapşırıqlar;
   - oxuyub-anlama üzrə birinci mətnə aid 11–15-ci tapşırıqlar;
   - oxuyub-anlama üzrə ikinci mətnə aid 16–20-ci tapşırıqlar;
   - dil bilikləri (leksik-qrammatik) üzrə 21–30-cu tapşırıqlar.
   - Yazı işi (məktub). Yazı blokunda iştirakçılardan verilmiş mövzu üzrə 120-150 sözdən ibarət məktub yazmaları tələb olunur.
8. Nəzarətçi "imtahan başlandı" elan etdiyi anda dinləmə mətninin olduğu audioqurğunu da işə salır. Sizə 2 dinləmə mətni (iki monoloq) təqdim olunur. Qurğudakı dinləmə mətninin olduğu audiofayl səsləndirilən zaman audiotəlimatçı öncə 1-ci mətnlə bağlı təlimat verilir və Sizə birinci dinləmə mətni *(1-ci monoloq)* üzrə sual kitabçasında təqdim olunan **(1-5-ci)** tapşırıqlarla tanış olmaq üçün **2 dəqiqə** vaxt verir. Mətnin *(1-ci monoloqun)* ilk dəfə səsləndirilməsindən sonra audiotəlimatçı Sizə bu mətnə dair tapşırıqlarla bir daha tanış olmaq üçün yenə **2 dəqiqə** vaxt verir. Sonra mətn ikinci dəfə səsləndirilir. Bundan sonra həmin mətn üzrə tapşırıqları cavablandırmaq üçün daha **4 dəqiqə** vaxt verilir. Bu vaxt qurtardıqdan sonra audiotəlimatçı 2-ci mətnlə bağlı təlimat verilir və *ikinci* dinləmə mətni *(2-ci monoloq)* üzrə təqdim olunan **(6-10-cu)** tapşırıqlarla tanış olmaq üçün **2 dəqiqə** vaxt verir. Bundan sonra *ikinci* dinləmə mətni *(2-ci monoloq)* ilk dəfə səsləndirilir. Mətnin *(2-ci monoloqun)* ilk dəfə səsləndirilməsindən sonra audiotəlimatçı Sizə bu mətnə dair tapşırıqlarla bir daha tanış olmaq üçün yenə 2 dəqiqə vaxt verir. Sonra mətn *(2-ci monoloq)* ikinci dəfə səsləndirilir.

   İkinci mətnin səsləndirilməsi başa çatdıqdan sonra Siz imtahanın sonunadək qalan vaxt ərzində həm dinləmə mətnləri üzrə təqdim olunmuş tapşırıqları, həm də digər tapşırıqları cavablandırırsınız.

**Mətnlərin səsləndirilməsinin sxematik təsviri**

| | | | | | |
|---|---|---|---|---|---|
| Birinci dinləmə mətni (1-ci monoloq) üzrə səsləndirmə | 1-5-ci tapşırıqlarla tanışlıq | mətn ilk dəfə səsləndirilir | 1-5-ci apşırıqlarla bir daha tanışlıq | mətn ikinci dəfə səsləndirilir | Bu tapşırıqlar üzrə cavablandırma yekunlaşdırılır |
| | *2 dəqiqə* | | *2 dəqiqə* | | *4 dəqiqə* |

| | | | | | |
|---|---|---|---|---|---|
| İkinci dinləmə mətni (2-ci monoloq) üzrə səsləndirmə | 6-10-cu tapşırıqlarla tanışlıq | mətn ilk dəfə səsləndirilir | 6-10-cu tapşırıqlarla bir daha tanışlıq | mətn ikinci dəfə səsləndirilir | Qalan vaxt ərzində həm dinləmə mətnləri üzrə verilən tapşırıqlar, həm də digər tapşırıqlar cavablandırılır |
| | *2 dəqiqə* | | *2 dəqiqə* | | |

**DİQQƏT!** *Dinləmə mətninin 2 dəfədən az və ya 2 dəfədən çox səsləndirilməsi qadağandır.*

9. "İmtahan başlandı" elan edildiyi andan etibarən tapşırıqlarının cavablandırılması üçün ayrılmış vaxtdan səmərəli istifadə edin. Cavabların cavab vərəqində qeyd olunmasına sərf olunan vaxt da ümumi imtahan müddətinə daxildir.
10. **Cavab vərəqinin qapalı tipli tapşırıqların kodlaşdırılması üçün nəzərdə tutulan hissəsində sual kitabçasında təqdim olunan 1-30 saylı** test tapşırıqlarının hər birinə verilmiş 5 cavab variantından (A, B, C, D, E) düzgün hesab etdiyiniz cavab variantını seçin, cavab vərəqində müvafiq test tapşırığının nömrəsini tapın və nömrənin qarşısında seçdiyiniz cavab variantına uyğun olan dairəni tam qaralayın. Əgər bir suala cavab olaraq birdən çox dairə qaralanarsa, həmin cavab səhv hesab edilir.
11. Yazı işini (məktubu) cavab vərəqinin arxa tərəfində yerləşən II hissədə, həmin tapşırıq üçün ayrılmış çərçivədən kənara çıxmadan, mürəkkəb axıtmayan qara və ya tünd göy rəngli diyircəkli qələmlə səliqəli və oxunaqlı şəkildə yazın.

**DİQQƏT!**

- *Yazı işi və danışıq bloku anonim qaydada qiymətləndirildiyindən cavab vərəqinin yazı işi (məktub) hissəsində imza atmaq, özünü tanıtmaq məqsədilə hər hansı işarə və ya qeyd aparmaq, habelə özü, ailə üzvləri, yaxınları, müəllimləri və s. barədə məlumat yazmaq yolverilməzdir. Eyni zamanda, danışıq bloku zamanı iştirakçının özünü və ya digər şəxsləri tanıda biləcək məlumatlar verməsi qadağandır. Bu hallara yol verildiyi təqdirdə yazı işi və ya danışıq bloku üzrə cavablar qiymətləndirilməyəcək və müvafiq hissə "0" balla qiymətləndiriləcəkdir.*
- *Cavabları cavab vərəqində kodlaşdırarkən yuxarıda göstərilən qaydalara riayət edin. Cavabların cavab vərəqində kodlaşdırılması ilə əlaqədar apellyasiya müraciətlərinə baxılmır.*

- *Ballarınız hesablanarkən yalnız cavab vərəqində qeyd etdiyiniz cavablar nəzərə alınır. Sual kitabçasında etdiyiniz qeydlər heç bir hüquqi əhəmiyyət daşımır. Səhv cavabların nəticələri düzgün cavablara təsir göstərmir.*
- *Başqasının cavablarını köçürməyin. Özünüz də diqqətli olun ki, sizin cavablarınızı heç kim köçürməsin. Nəticələriniz yoxlanarkən xüsusi araşdırma zamanı köçürmə faktı aşkar edilərsə, həm köçürənin, həm də köçürməyə şərait yaradanın imtahan nəticələri ləğv olunacaqdır.*
- ***İmtahanın gedişi zamanı hər bir iştirakçı öz cavab vərəqinin və sual kitabçasının qorunmasına və korlanmamasına görə şəxsən məsuliyyət daşıyır.***

12. Qeydləri aparmaq üçün sual kitabçasında boş yerlər nəzərdə tutulmuşdur. Buna görə də əlavə kağızdan istifadə etməyə icazə verilmir.
13. İmtahanın başlanmasından **imtahanın sonunadək** imtahan zalından çıxmaq qadağandır.

**Diqqət! İmtahanın birinci hissəsində sonadək iştirak etməyən iştirakçı imtahanın ikinci hissəsinə (danışıq blokuna) buraxılmır.**

14. Birinci hissədə "İmtahan qurtardı!" elan olunduqda nəzarətçi cavab vərəqi və sual kitabçalarını təhvil alır.
15. Cavab vərəqinin və sual kitabçasının təhvil verilməsinə görə siz şəxsən məsuliyyət daşıyırsınız. Cavab vərəqini və sual kitabçasını təhvil verdikdən sonra imtahana buraxılış vərəqəsində nəzarətçiyə imza etdirməlisiniz. **Cavab vərəqini və sual kitabçasını nəzarətçiyə təhvil verməsəniz, imtahan nəticələriniz ləğv olunacaqdır.**
16. Siz cavab vərəqlərinin zərfə qoyularaq bağlanmasında iştirak edib, zərfin üzərindəki aktı imzalaya bilərsiniz.
17. İmtahanın birinci hissəsi başa çatdıqdan sonra danışıq bloku üzrə imtahan başlayacaqdır.
18. **İkinci hissə – danışıq bloku.** Bu hissə kompüter proqramı vasitəsilə şifahi formada həyata keçirilir və iki mərhələdən ibarətdir:
    - Birinci mərhələdə iştirakçıya 3 sual təqdim edilir;
    - İkinci mərhələdə iştirakçıya 1 sual təqdim edilir.

    Danışıq bloku üçün ümumilikdə 30 dəqiqə vaxt ayrılır. Bu müddətin **11 dəqiqəsi** iştirakçıların sualları cavablandırması üçün nəzərdə tutulur.

    **Danışıq blokunun demo versiyası** ilə aşağıdakı link vasitəsilə tanış ola bilərsiniz: **https://portal.dim.gov.az/danishiq/**

19. İmtahan üzrə toplanıla biləcək maksimal bal 50-dir. Keçid balı 17-dir.
    - Test tapşırıqlarının cavablandırılması hissəsində hər bir düzgün cavab 1 balla qiymətləndirilir. Səhv cavablar ümumi nəticəyə təsir göstərmir.
      Test tapşırıqları üzrə toplanıla biləcək maksimal bal 30-dur (dinləyib-anlama üzrə 10 bal, oxuyub-anlama üzrə 10 bal, dil bilikləri (leksik-qrammatik) tapşırıqları üzrə 10 bal). Bu bölmələrin hər biri üzrə minimal bal tələbi 2 baldır.
    - Yazı işi üzrə toplanıla biləcək maksimal bal 10, minimal bal tələbi 2 baldır.
    - Danışıq bloku üzrə toplanıla biləcək maksimal bal 10, minimal bal tələbi isə 2 baldır.

## İŞTİRAKÇIYA QADAĞANDIR:

- imtahana öz yerinə başqasını göndərmək;
- saxta sənəd təqdim etmək;
- imtahan binasına, zalına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, çanta, məlumat kitabçası, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;

**DİQQƏT!**
- İştirakçının imtahan binasına qadağan edilmiş vasitə, vəsait və ya əşya keçirtdiyi müəyyənləşdirilərsə bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.
- Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda bu vasitələrin də imtahan binasına buraxılmasına icazə verilmir.

- imtahan binasına yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla daxil olmaq, habelə yemək (qida məhsulları), içki və tütün məmulatları gətirmək;

**DİQQƏT!** Elektron imtahan zamanı kompüter avadanlığının zədələnməsi riskinin qarşısını almaq məqsədilə imtahan iştirakçılarının imtahan binasına (zala) su və digər maye məhsullar gətirməsi qadağandır. Zərurət olduqda iştirakçılar içməli su ilə təmin olunur.

- sual kitabçaları paylandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;

- nizam-intizam qaydalarını pozmaq, zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqasının cavab vərəqinə, sual kitabçasına baxmaq və ya öz cavab vərəqinə, sual kitabçasına başqasının baxması üçün şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;
- "İmtahan başlandı!" elan olunan andan **imtahanın sonunadək** səbəbindən asılı olmayaraq imtahan zalından çıxmaq;
- nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;
- cavab vərəqini və sual kitabçasını nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

Belə hallara yol verən iştirakçı imtahandan xaric olunacaq və onun imtahan nəticələri ləğv ediləcəkdir. Bu qərardan inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

DİM-in iştirakçının imtahan qaydalarına zidd hərəkətini imtahandan sonra da aşkar etmək üçün müxtəlif üsulları vardır.

Əgər imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin, nəzarətçi lazımi tədbir görməzsə, imtahan rəhbərinin və ya DİM nümayəndəsinin zala gəlməsini tələb edin.

Nəzarətçilər qeyri-fənn müəllimləridir. Onların vəzifəsi imtahanın gedişi zamanı nizam-intizam yaratmaqdır. İmtahanın başlandığı elan edildikdən sonra sizin onlara sual verməniz, onların sizə yaxınlaşıb hər hansı bir məlumat almaq üçün müraciət etməsi imtahan qaydalarına ziddir.

Nəzarətçi müəllimlərin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmazsa, bu barədə imtahan rəhbəri zala gəldikdə ona məlumat verin.

İmtahan binasından çıxdıqdan sonra imtahanın gedişi ilə əlaqədar şikayətlərə baxılmayacaqdır.

***Sizə müvəffəqiyyətlər arzulayırıq!***